Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
02 iyul 2020-ci il №62 (3605)


# Diaspor fəaliyyəti ilə məşğul olan icmalar aktiv olmalıdır

## Cavad İsmayıl: *"Təkcə yaşadığım Çikaqo şəhərində yox, digər şəhərlərdə də diasporun gücü, fəaliyyəti hiss olunur"*

**Dünyada baş verən proseslərin fonunda, xüsusilə erməni lobbisinin öz fəallığını artırdığı indki zamanda xaricdəki soydaşlarımızla işləri intensivləşdirmək zərurətə çevrilib. Və bu məsələdə dünya üzrə hər bir azərbaycanlının vahid platformadan çıxış etməsi milli mənafelərimizə xidmət edəcək ən böyük iş olardı. Nədən ki, çox yaxın keçmişə qədər xaricdəki azərbaycanlılar öz aralarında intriqalarla məşğul olurdular. Daha düzünü desək, ayrı-ayrı qüvvələr, institutlar soydaşlarımızı belə vəziyyətə gətirir, onları öz aralarında daim mübahisə etməyə kökləyirdilər. Nəticədə isə xaricdə yaşayan azərbaycanlılar öz enerjilərini, güclərini biri-birlərinə qarşı xərcləyirdilər. Bundan isə təbii ki, biz deyil, bizə qarşı olan qüvvələr qazanırdı.**

Xarici ölkələrdə yaşayan, lakin buna rəğmən öz vətənini düşünən, xalqa uzaqdan da fayda vermək istəyində olan insanlarımız isə az deyil. Belə şəxslərdən biri də artıq uzun illərdir ki, ABŞ-da yaşayan, əslən Cənubi Azərbaycandan olan jurnalist Cavad İsmayıldır. ABŞ-a köçdükən sonra 15 ilə yaxın cənubi azərbaycanlıların yaratdığı "GünAZ TV" kanalında çalışan C.İsmayıl bu yaxınlarda sırf azərbaycanlılar üçün nəzərdə tutulan yeni Youtube" televiziya kanalı yaradıb. Kanalda vətəndaşlarımız üçün aktual olan sağlamlıq və mədəniyyət mövzularına toxunulur.



**Yaradılan kanal və digər məsələlər haqqında modern.az-a danışan C.İsmayıl bildirib ki, ABŞ-da televizordan çox bu tip kanallara baxmaq ənənəsi formalaşıb:** "Günaz TV"ni məcburi tərk etdikdən sonra düşündüm ki, müstəqil "Youtube" kanalı yaradım. "Youtube" kanalı yaratmağı ona görə istədim ki, ümumiyyətlə artıq ənənəvi televiziya sıradan çıxır. Burda televizorda hər hansı sevimli verilişinizə baxmaq üçün gərək evdə olmaq, televizor, peyk anteni, çöl anteni və s. qurğu alasan. Amma olduğun məkandan asılı olmayaraq "Youtube" vasitəsilə istədiyin verilişə baxa bilərsən. Bu baxımdan ABŞ-da televizordan çox bu tip kanallara baxmaq ənənəsi formalaşıb. Buna görə də düşündüm ki, texnologiyanın bu cür inkişafı ilə mədəniyyətimizin carçısı olaq. Çünki gec-tez Azərbaycanda da televizora baxmaq ənənəsi sıradan çıxacaq. Burda azərbaycanlı həkimlərdən 2 nəfər mənə təklif verib bildirdilər ki, kanalda sağlamlıq mövzusuna toxunaq, onlar da güya dəstək göstərəcəklər, təəssüflə 4 ay zamanımı aldılar, sonda isə sözlərini tutmadılar.

Əvvəllər işin texniki tərəfini bilmədiyim üçün təbrizli bir ailə dostumuz bu məsələlərdə mənə yardımçı oldu. Elə indi də mənə hansısa problem olanda yardım edir. Verilişlərimiz siyasətdən kənardır. Sağlamlıq mövzusunu seçməkdə əsas məqsəd isə odur ki, bəzən vətəndaşlarımız yalnış həkimlərin yanına gedib, yalnış müalicə götürürlər. Bu da dünyada yaşayan əksər həkimlərimizi narahat etdiyi üçün onlar istədi ki, öz məsləhətlərini xalqımıza çatdıra bilsinlər. Vətəndaşlarımızın da nə sualı olsa, onlara rahatlıqla ünvanlaya bilərlər. ABŞ-da, bütün dünyada azərbaycanlıların sayı artır. Azərbaycanlı ailəsinin dəyərlərinin qorunması, ənənələrimizin təbliği üçün də sağlamlıqdan əlavə mədəniyyət sahəsini seçməli olduq".

**C.İsmayıl qeyd edib ki, "Youtube" kanalı yaratmaq təşəbbüsünün formalaşmasına karantin rejimi ilə əlaqədar olaraq insanların daha çox evdə vaxt keçirməsi səbəb olmayıb. Bu sadəcə istəkdən irəli gəlib:** "Kanal yaratmaq haqqında düşünəndə ümumiyyətlə koronavirus məsələsi gündəmdə deyildi. Təxminən 3-4 ay əzrində kanalın formalaşması ilə bağlı fikirlərimizi müzakirə etmişik, ondan sonra addım atılıb. Yəni evdə qaldığım üçün, insanların da boş vaxtı çox olacaq deyə bu ideya formalaşmadı. Sadəcə, belə bir kanalın olması ehtiyacını duydum və dostların da təşəbbüsü ilə istəyim reallaşdı.

Bütün yük mənim üzərimdədir. Çünki veriliş ssenarisini mən yazıram, qonaqlarla mən danışıram, eyni zamanda kanalın piar məsələsi ilə də məşğul oluram. Təsəvvür edin ki, veriliş yayımlanan zaman belə qonaqların adının, mövzunun ekranda yazılması kimi məsələlərə də mən diqqət etməli oluram, həm də sual verə-verə... Demək istədiyim odur ki, bütün verilişin çətinliyi mənim üzərimdədir. Amma bununla bərabər məsləhət aldığım bəzi dostlar var ki, könüllü dəstək göstərirlər".

**Sırf səhiyyə ilə bağlı ABŞ-da yaşayan xarici həkimlərin də verilişlərə çağırılmasının nəzərdə tutulduğunu bildirən C.İsmayıl təəssüflə qeyd edib ki, bəzən həkimlər verilişlərə gəlmirlər:** "Çox təəssüf ki, həkimlərə müraciət olunsa da, onlar verilişlərə gəlmirlər. Çünki dövlət bildirmişdi ki, dezinformasiya yayılmaması üçün həkimlər özbaşına açıqlama verməkdən imtina etsinlər. Burada yaşayan insanlar isə qanun qarşısında acizdirlər və qanuna tabe olmasalar, ciddi zərbə alacaqlarını bilirlər. Amma gələcəkdə nəzərdə tuturuq ki, xarici mütəxəssisləri də verilişlərə dəvət edək"

**Diaspor təşkilatının fəal üzvlərindən biri olan C.İsmayıl bildirib ki, onun diaspor fəaliyyəti ABŞ-la bağlı olan məsələ deyil:** "Hələ Azərbaycanda yaşadığım dövrdə Diaspor Komitəsinin rəhbərliyi seçilməmişdi. O, zaman Dünya Azərbaycanlıları Konqresi var idi. Düzdür, orada heç bir vəzifə tutmurdum, amma əməkdaşlığı davam etdirirdim. Sonradan Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Komitə yaradıldı. Komitəyə rəhbərliyə gətirilən adam dağıdıcı funksiya daşıyırdı, onun işi nəticəsində fəal adamlar da komitədən uzaqlaşdı. Nəhayət sonradan Fuad Muradovun Diaspor Komitəsinin sədri təyin edilməsi çox uğurlu addım oldu. Onun seçdiyi nümayəndələr də fəal, işini bacaran kadrlardır. Hiss edirəm ki, təkcə yaşadığım Çikaqo şəhərində yox, digər şəhərlərdə də diasporun gücü, fəaliyyəti hiss olunur. Diaspor fəaliyyəti hakimiyyəti tərif etməklə olmur. Sadəcə dövlət bu təşkilata dəstək verir və icmalar aktiv olmalıdır. Bu məsələ indi öz yolunu tapıb".

**Koronavirus pandemiyasına ABŞ-da xüsusi önəm verilmədiyini deyən C.İsmayıl bu ölkədə qarşıdan gələn prezident seçkilərinə də toxunub:** "ABŞ cəmiyyətində kimsə koronavirus məsələsinə önəm vermir. Əgər sabah xəbər yayılsa ki, Donald Tramp koronavirusa yoluxub, inanın ki, o xəbər olaraq bir dəfə yayımlanacaq və söhbət orda da öləcək. Yəni bu cəmiyyət üçün virusa yoluxmaq və ondan qurtulmaq məsələsi pul ilə həll olunur ki, Tramp üçün də bu xəstəlik problem həddində deyil.

Tramp nə qarşıdan gələn prezident seçkilərinə görə, nə də hər hansı səbəbdən media qarşısına çıxır. Mətbuat qarşısına çıxmaq məsuliyyət tələb etdiyindən Tramp bu cür davranır. Bu ölkədə insanlara o cür açıqlamalar verilməsə, vəziyyət daha da çətin olacaq. Çünki bu böyüklükdə ölkənin iqtisadiyyatına çox ciddi ziyan dəyib. Hazırda 40 milyondan çox insan işsiz kimi qeydiyyata alınıb və onlar dövlətdən həm ərzaq alırlar, həm də pul. Trampın liderlik dövrü çətin dövrə təsadüf etdiyi üçün hər şeyin şəffaf olduğu ölkədə daimi olaraq media qarşısına çıxmaq lazımdır. Bundan başqa, bəzi iqtidardaxili qruplar kənardan durub seyr edirlər ki, hakimiyyət nə isə səhv buraxsın və o səhvlə hər şeyi dəyişdirsinlər".

**Cavanşir QƏDİMOV**

KİVDF

**Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi**

**Məqalə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilib**